# Kredo

İNSANIN QƏLBƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR! TARİX

Müstəqil ictimai-siyasi, publisistik qəzet №03 (1297) 16 yanvar 2026-cı il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


# Şəddat Cəfərov - 86

*Elə insanlar var ki, onların həyatı həmişə diqqət mərkəzində olur. Rəssamlar portretini çəkir, şairlər vəsf edir, publisistlər həyat və fəaliyyət yolunu daim hərəkətdə yazıya gətirirlər. Şəddat Cəfərov əməli fəaliyyəti ilə müasirlərinin hər vaxt diqqətində olub. Görünəni budur ki, onu tanıyanlar təəssüratlarını, həm də ən yaxşı təəssüratlarını yazıdan əsirgəməyiblər. Çünki onun həyatı cəmiyyətə, insanlara xeyirxahlıq örnəyi kimi özünü təsdiq edib. Azərbaycanın ən görkəmli söz, sənət xİri-darları Şəddat Cəfərov haqqında yazıblar, fikir bildiriblər. Ancaq bu kitabda yalnız iki publisistik yazını, iki gənc müəllifin təəssüratını əlavə kimi təqdim etməyi özümüzə borc bildik. Şəddat Cəfərov ziyalıdır. Vətənini, xalqını sevən, tarixi, mənəvi dəyərləri yaşam yolunda özünə ölçü, meyar kimi bilən ziyalıdır. Belə insanları cəmiyyət sevir.*

*Ə. R. XƏLƏFLİ*

# İBRƏTLİ ÖMÜRDƏN SƏHİFƏLƏR TARİXİN YADDAŞINDA

## *Zirvədən görünən ucalıq yaxud böyük ziyalıya qısa ad günü təbriki*



Şəddat Cəfərov... Bu ad hər kəsə nəsə deyir... Kimisi şəxsən tanıyır, kimisi haqqında nəsə eşidib, bir başqası yazılarını oxuyub, əsərlərilə tanışdır. Eləsi də var ki, onun qayğısını görüb, yaxşılıqlarından faydalanıb; zənnimcə, az deyil. Bir insanın mükəmməl portreti üçün qaneedici faktlardı. Düşünürəm ki, həssas bir rəssam üçün ustad Şəddat Cəfərovun portretini çəkmək qətiyyən çətin olmaz. düşünürəm ki, qısa ad günü təbriki ilə onun portretinin bəzi cizgilərini çəkim.

Nisbətən cavan adam, yəni həyatın çətinlikləri ilə çox da üz-üzə qalmayan birisi üçün özündən yaşca xeyli böyük şəxs haqqında obyektiv və dəqiq fikir demək, mülahizə yürütmək o qədər də asan deyil. Bu gün 14 yanvar onun ad günüdür. Nə yaxşı desəm yeri var.

Zəngin həyat yolu keçmiş şəxsin ömür kitabını oxumadan, öyrənmədən necə asan danışmaq olardı... Yeniyetməlik çağından, hələ 15 yaşı tamam olmayan bir gəncin həyat və əmək yolu mətbəədən başlanır. Söhbət 70 il bundan əvvəldən gedir; 7 onilliyi geridə qoyduğu zaman olduğu kimi təsəvvür etmək asan deyil. Mətbəənin iş şəraiti o qədər də asan olmasa da, həmin yeniyetmə gənc bu ağır işə alışır, həm oxuyur, təhsilinin qayğısına qalır, həm də pul qazanıb özünü saxlayır. Ailənin də ehtiyaclarını ödəmək üçün imkanlarını əsirgəmir.

Mətbəə işinin ağırlığı onu qorxutmur, hətta onda maraq doğurur, məktəbdə adını eşitdiyi, kitablardan əsərlərini oxuduğu, şəkillərini gördüyü söz-sənət adamları ilə iş yerində canlı görüşür, söhbətlər onda bu sahəyə bir cazibə yaradır. Bəlkə elə bu cazibə də onun taleyini mətbəəyə bağlayır.

Mətbəə işinin təkmilləşdirilməsi, gəlirlərin artırılması, iş şəraitinin yaxşılaşdırılması üçün verdiyi səmərələşdirici təkliflər keçmiş Sovet məkanının uyğun sahəsində böyük səs-küy yaradır. Hətta, şəkkaklar tapılır ki, geridə qalmış bir istesalat sahəsini necə qısa vaxtda öncüllər sırasına çıxarmaq olar. Hətta, o zamankı müvafiq mərkəzi qurumdan Azərbaycana nazir müavini gəlir. Şəddat müəllimin direktor olduğu mətbəənin işi əsaslı şəkildə yoxlanılır. Nəticədə onun rəhbərlik etdiyi kollektiv Keçici Qırmızı Bayraqla təltif olunur. Onun rəhbərliyilə həyata keçirilmiş "ilk"lər seriyası başlanır. İlk miniatür kitablar, ilk rəngli şəkillərin Azərbaycanda hazırlanması, kitab çapının daha səmərəli üsullarının tətbiqi onun adı ilə bağlıdır.

Moskvanın və ittifaqın digər mərkəzi şəhərlərin ali məktəblərində mühazirələr oxuyub. Öz işində qazandığı təcrübəni və nəzəri düşüncələrini ümumiləşdirib, elmi işini başa çatdırıb. Tələbkar Moskva mühitində uğurla müdafiə edib.

Azərbaycanın ilk poliqafçı alimidir. Kitabçılıq və nəşriyyat işində ustadımızdır. Son illər bizim redaksiyanın xətti ilə çap olunan kitabların uğurlu nəşri həm də onun dəyərli məsləhətlərinin nəticəsidir. Bunlar öz yerində. Axı onun tükənməyən enerjisi yaradıcılıq sahəsində özünün dəyərli ənənəsini yaradıb. Ədəbi püblisistik yaradıcılığı çoxsaylı cildlərdə həyata vəsiqə alıb.

Onun Sabir Rüstəmxanlı, Qafarlı Cəfərli, Rafiq Musa, elə mənim yaradıcılığımla bağlı tədqiqatları kifayət qədər elmi ictimaiyyətin diqqətini cəlb edir.

Şəddat Cəfərovun yaradıcılığını iki istiqamətdə araşdırmaq olar. Birinci onun elmi tədqiqatlarıdır. Kitab çapının müxtəlif problemləri onun elmi işini mahiyyətini əks etdirir.

Bir neçə elmi əsəri çap olunub, nəşriyyat və kitab çapı ilə bağlı ixtisas sahələrində dərslik və dərs vəsaiti kimi istifadə olunur.

Ədəbi tənqidi düşüncələri və ədəbi-publisistik yaradıcılığıda artıq tətbiq olunur, öyrənilir. Amma onun bədii yaradıcılığıda kifayət qədər geniş oxucu auiditoriyasına malikdir. O, yumoristik hekayə janrında qələmini ustalıqla işlədə bilir. Bir neçə yumoristik kitabı nəşir olunub. Hekayələri, rus, ukrain, ingilis, türk, fars və.s dillərinə tərcümə olunub.

Şəddat müəllimlə uzun müddətli dostluq və yaradıcılıq əlaqələrimiz səmərəsiz örtməyib. Qəzetin gənc əməkdaşı, Ceyhun Zallı ilə birlikdə onun həyat və yaradıcılığını ehtiva edən "Böyük portretin işığı" II-cildlik tədqiqat-monoqrafiya yazıb nəşir etmişik. Ümumiyyətlə onu qeyd edim ki,Şəddat Cəfərovun yaradıcı portreti bir neçə müəllif tərəfindən işlənib, haqqında çoxlu kitablar yazılıb.

Zəngin arxivi, Azərbaycan Tarixi Muzeyində hifz olunur. Çoxlu dövlət və yaradıcı təşkilatları tərəfindən təltifləri var.

Bütün həyatını nəsillər üçün ibrət kitabı olacaq ziyalıdır. Təbiət etibarı ilə maraqlı adamdır. Onun ciddiyəti ilə yumoru bir-birinə çox qovuşuqdur. Bəzən bir fikrini yumor üçün deyir, yoxsa ciddiyyətlə ifadə edir. Bir az fəhmsiz adam üçün bunları ayırmaq çətin olur. Nəhayət bir-iki məqamı da qeyd etmək istərdim. ümumiyyətlə alimin, yazıçının, istehsalat rəhhbərinin təbiəti onun xasiyyəti ilə tamamlanır. Onun rəhbərlik elədiyi kollektivlərdə heç vaxt intiraqaya prinsipsiz çəkişmələrə yer olmur.

Adicə insani münasibətlə bir çox hallarda ən mürəkkəb vərdişlərə yol aça bilən problemləri həll edir, çətinlikləri asana çevirməyi bacarır. Dostlarına və işçilərinə tələbkar olsa da qayğısını əsirgəmir, bununla da ətrafda özünə cazibə yaratmağı bacarır. Çoxlarını görmüşük, dostluğu mənafe ilə ölçür, maddi maraq, təmənna itən kimi dostluqda bitir. Amma Şəddat müəllimlə dostluq özgə aləmdir. Vaxtaşırı dostlarına zəng edir, sözü nikbinliyi ilə mənəvi dayaq imkanlarını əsirgəmir.

Deyirlər ki, dağların əzəməti uzaqdan daha yaxşı görünür... razıyam, ancaq bu zirvəyə qalxıb oradan daha, uca dağa baxmaqda qeyri-adi təəssürrat yaradır. Şəddat müəllimin obrazını tam dərk etmək üçün onu qədərincə görmək və tanımq gərəkdir. İbrətli bir ömür tarixin yaddaşından oxunan kitab kimi yaşayacaq... O zirvədən daha parlaq görünən ucalıqdır. Şəxsiyyət ucalığı, əzəmətlə səslənən insan ucalığı.

Onun yolunu görənlərə, elə mən də əbədi bir işıqdır. İşıq haqqdan yanırsa sönməz, işi tufanla savaşsa da...

*Əli Rza XƏLƏFLİ*
*14.01.2026*